# Den Brauna inanmaq



Pyetro Meydanında Papa II İohan-Pavelin ölümü xəbərini gözləyərkən, axmaq bir cavanın qulağında cib telefonu, gülümsəyərək kameralara əl sallaması mənə çox təsir etdi. Milyonlarca dindan evlərində dua edərkən, o və onun kimi başqaları niyə ordaydı? Metafizik və mediatik bir hadisəni gözləyərkən, İsanın Məcdəlli Məryəm ilə evləndiyinə, Siyon Təriqətinin mistik bağıylaJanKoktuya bağlı olduğuna inanmağa hazır deyildimi görən?

***Hər gün əlimə DenBraunun "Da Vinçişifrəsi" kitabıyla bağlı yeni bir şərh keçir. Təkcə italyanca yazılanları deyirəm, çünki bütün dünyada çapdan çıxan kitablarla bağlı biblioqrafiya əldə etmək bacarığım yoxdur. İtaliyada çıxan kitabları saya bilərəm: BartEhrmanın "Da VinçiŞifrəsi reallığı", DarrelL.Bokun "Da Vinçişifrəsi. Həqiqətlər və yalanlar", DenBurşteynin "Şifrənin sirləri." Mütləq diqqətimdən qaçan başqa kitablar da olub. Bu mövzuda çıxan məqalələrlə bağlı informasiya əldə etmək üçün Opus Dei internet saytını ziyarət edə bilərsiniz. Ateist olsanız da, bu sayta etibar edə bilərsiniz. Əsas problem katolik dünyasının DenBraunun kitabını niyə yerlə-bir etməyə çalışmasıdır. Əgər katolik müəlliflər kitabdakı bütün bilgilər əsassız olduğunu yazırlarsa, onlara da inana bilərsiniz.***

"Da Vinçişifrəsi" bir romandır, onun üçün yazıçının istədiyini uydurmaq haqqı var. Üstəlik, böyük ustalıqla yazılıb və birnəfəsə oxunur. Yazıçının kitabın əvvəlində nəql etdiklərinin tarixi həqiqətlər olduğunu deməsi də vacib deyil. Təcrübəli oxucu "həqiqətləri yazıram" deyilməsinə vərdiş edib, bu, roman dünyasının bir oyunudur. Problem bir neçə təcrübəsiz oxucunun bu açıqlamaya inanmasındadır, eynilə tamaşaçıların ənənəvi Sisiliya kukla oyununda Gano di Maqanzanı təhqir etməkləri kimi.

"Da Vinçişifrəsi"nın tarixi reallıqları əks etdirməyini isbat etmək üçün xırda bir yazı yazmaq kifayətdir (bu haqda gözəl yazılar yazılıb). Birincisi, İsanın Məcdəlli Məryəm ilə evlənməsi, Məryəmin Fransaya səyahəti, Merovenj xanədanlığının qurulması və Siyonmonastrı hekayəsi neçə illərdir metafizik elmlərə maraq göstərən şəxslər üçün yazılmış kitab və kitabçalarda geninəboluna istifadə edilib. (Gilbert de SidinRennes-le-ChateasundanBaigent, Leigh və Linkolnun "Müqəddəs qan, müqəddəs qədəh" kitablarına qədər).

Bütün bu əsərlərin şişirdilmiş hekəyələr olması uzun müddət əvvəl deyilib və isbat olunub. Üstəlik, Baigent, Leigh və Linkolnun əsərlərini oğurladıqları ittihamıylaDenBrauna qarşı qanuni prosedurbaşladacaqlarıdeyilir.Necə olur? Əgər Napaleonun bioqrafiyasını yazası olsam (real hadisələri nəql edərək), Napaleonun başqa bioqrafiyasını eyni hadisələri uydurma detallarla ifadə edən müəllifi əsərimi oğurlamaqla ittiham edə bilmərəm. İttiham etməyim üçün çox original kəşfimi (düşüncəmi, ya da yalanımı, necə istəsəniz qoyduğu bilgiləri) Bu əlyazmalar İsadan yox, musəvilərdən, essenilərdən bəhs edir. Braun Ölü Dəniz əlyazmalarını NahHammadiəlyazmalarıyla qarışdırır.

***"Da Vinçişifrəsi" hadisəsini işləyən kitabların əksəriyyəti, xüsusilə də yaxşı yazılanlar və kitab sayılacaq qalınlıqda olanlar Braunun yağmaladığı hər şeyi ən xırda detalına qədər təhlil edirlər. Bu kitablar yalanı vurğulamaq üçün yazılmış olsalar da, metafizik materialın yayılmasına rəvac verirlər. Son vaxtlar irəli sürülən qəribə düşüncəni qəbul edəsi olsaq (guya bu kitab satanik bir konspirasiyadır), əsər haqqındakı hər təkzib içindəki üstüörtülü sözlərin daha çox yayılmasına imkan yaradır.***

Məzmunun falş olması sübut olunsa da, bu kitab niyə özü özünü istehsal etməyə davam edir? Çünki insanlar mistikaya (və konspirasiyalara) acdır, onlara düşünəcəkləri bir sirr daha təqdim olunanda (bu-

> ***"Da Vinçişifrəsi" hadisəsini işləyən kitabların əksəriyyəti, xüsusilə də yaxşı yazılanlar və kitab sayılacaq qalınlıqda olanlar Braunun yağmaladığı hər şeyi ən xırda detalına qədər təhlil edirlər. Bu kitablar yalanı vurğulamaq üçün yazılmış olsalar da, metafizik materialın yayılmasına rəvac verirlər. Son vaxtlar irəli sürülən qəribə düşüncəni qəbul edəsi olsaq (guya bu kitab satanik bir konspirasiyadır), əsər haqqındakı hər təkzib içindəki üstüörtülü sözlərin daha çox yayılmasına imkan yaradır***

elə deyin) oğurlamış olmalıdır.

İkinci məsələyə keçək, Braun kitabını çoxsaylı tarixi səhvlərlə doldurub. Əvvəla, İsa haqqında Ölü Dəniz əlyazmalarında informasiya axtarılıb (Kilsənin senzuraya məruz

nun hiyləgərlərin uydurması olduğunu desən belə) tezcə inanırlar.

Kilsəni qayğılandıran hadisənin bu olduğunu düşünürəm. "Şifrə"yə (və başqa bir İsaya) inanc xristianlıqdan çıxmaqdır. İnsanlar artıq tanrıya inanmırlarsa, deyirdi Çesterton, bu o demək deyil ki, heç bir şeyə inanmırlar, əksinə hər şeyə inanırlar. Kütləvi İnformasiya Vasitələrinə belə inanırlar.

*Çox böyük bir izdiham San*

**Umberto Eko**
**Tərcümə etdi:**
**Qismət Rüstəmov**